


# Xalq Prezident İlham Əliyevə böyük etimad bəsləyir

***Sosial Tədqiqatlar Mərkəzinin "İnam İndeksi" jurnalının VI buraxılışında Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti ictimai rəydə qiymətləndirilib. Dövlətimizin başçısının 2021-ci ilin ikinci yarısı üzrə siyasi, hərbi, diplomatik, sosial və mədəni sahələrdə, informasiya cəbhəsində çoxşaxəli, eyni zamanda, olduqca zəngin fəaliyyəti vətəndaşların rəylərində əks etdirilib.***

Xatırladaq ki, rəy sorğusu təqvim etibarilə mühüm tarixi məqama, postmüharibə dövrünə, Qarabağın bərpa və quruculuq mərhələsinə təsadüf edir. Sorğuda 1162 respondentin rəyinin nəticəsi diqqətə çatdırılır. Sorğunun nəticələrinə əsasən, postmüharibə dövrünün ilk ili kimi xarakterizə edilən 2021-ci ildə dövlət başçısının fəaliyyəti hər zaman olduğu kimi, öz dinamikliyi və aktivliyi ilə nəzərə çarpır.

Sorğuda iştirak edən vətəndaşların Prezidentə inam etimadı 91,2 faiz tam etibar edirəm, 6,9 faiz əsasən etibar edirəm olmaqla yüksək səciyyələnir.

Respondentlərin əhəmiyyətli hissəsi Şuşa Bəyannaməsinin Azərbaycan və Türkiyə arasındakı münasibətləri hərbi müttəfiqlik səviyyəsinə qaldıracağını (60,4 faiz), Türkiyə ilə birbaşa hərbi, təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı yeni mərhələyə daşıyacağını (61,6 faiz), Azərbaycan və Türkiyənin türk dünyasının milli maraqları və türk həmrəyliyi üçün örnək rolunu oynayacağını (50,6 faiz) düşünür.

**(ardı 3-cü səhifədə)**

# Xalq Prezident İlham Əliyevə böyük etimad bəsləyir



**(əvvəli 1-ci səhifədə)**

İctimai rəydə Şuşa Bəyannaməsinə belə həssas münasibət təsadüfi deyil. Bu, ölkəmizin, eləcə də regionun həyatına önəmli təsiri olacaq taleyüklü bir hadisə ilə bağlıdır. Belə ki, bu il iyun ayının 15-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfəri çərçivəsində Şuşada Prezident İlham Əliyevlə birgə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsini imzaladı. Bu bəyannamə tarixi köklərə, möhkəm təmələ əsaslanan Türkiyə–Azərbaycan birliyinin sarsılmaz olduğunu bir daha göstərdi. Eyni zamanda, bu sənəd hər iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətin qarşılıqlı şəkildə əlaqələndirilməsinin bundan sonra da diqqətdə saxlanılacağı əminliyi yaratdı. Buna görə də bəyannamə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və dövlətimizin başçısı İlham Əliyev tərəfindən "iki ölkə arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinin yol xəritəsi" kimi yüksək dəyərləndirildi.

Şuşa Bəyannaməsində Türkiyə ilə Azərbaycanın dostluq və qardaşlıq münasibətlərini daha da gücləndirmək, regionda sülhü və sabitliyi qorumaq, möhkəmləndirmək məqsədi daşıyan bir sıra önəmli vəzifələr öz ifadəsini tapıb. Həmin vəzifələr 44 günlük müharibədən sonra bölgədə yaranan yeni əməkdaşlıq imkanlarını reallaşdırmaq istiqamətində önəmli addımlar atan iki qardaş ölkənin sülhə, əmin-amanlığa sadiq qaldığını göstərməklə bərabər, Cənubi Qafqazı sülh regionuna çevirmək məqsədi daşıdığından xəbər verir.

Şuşa Bəyannaməsində müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapıb. Bu, bir daha göstərir ki, Azərbaycan və Türkiyə indiyədək olduğu kimi, bundan sonra da hər zaman bir-birinin yanında olacaq, bir-birinin təhlükəsizliyini təmin edəcək.

Şuşa Bəyannaməsində silahlı qüvvələrimizin yeni çağırışlara uyğun olaraq yenidən formalaşdırılması, modernləşdirilməsi və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi bu baxımdan xüsusi diqqət çəkir. İki qardaş ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunması istiqamətində sıx əməkdaşlığı da nəzərdə tutulur. Eyni zamanda, bəyannamədə bu məqsədlə səlahiyyətli struktur və qurumların qarşılıqlı əlaqəli fəaliyyətinin təmin edilməsi vurğulanır.

Sorğuda Zəngəzur nəqliyyat dəhlizinin fəaliyyətə başlaması ilə Azərbaycanın öz eksklavı olan Naxçıvanla və qardaş ölkə Türkiyə ilə əlaqələrinin güclənəcəyinə (74 faiz), türk dünyasında birliyin güclənməsinə xidmət edəcəyinə (54,7 faiz), Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinə çıxışını (53,5 faiz), Türkiyə və Azərbaycanın türk dünyasına birbaşa çıxışını təmin edəcəyinə (34,8 faiz) əminlik ifadə olunub.

Vətəndaşların sorğunun bu bəndi üzrə yüksək göstəricilərə əsaslanan fikirlərinin də mühüm önəm daşıması bu gün bölgədə yaranan yeni reallıqlarla bağlıdır. Xatırladaq ki, ərazilərimizin işğaldan azad edilməsi nəticəsində yaranan yeni reallıqla bağlı ölkə rəhbəri İlham Əliyev tərəfindən indiyədək çox sayda açıqlamalar verilib. Yuxarıda xatırlatdığımız Şuşa Bəyannaməsinin imzalanma mərasimindən sonra Türkiyə və Azərbaycan prezidentlərinin mətbuata birgə bəyanatlarla çıxış edərkən də bu barədə ətraflı bəhs edilib. Dövlətimizin başçısı bəyanatında deyib: "Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə bəyanatında Azərbaycanın Zəngəzur dəhlizi layihəsini çox əhəmiyyətli hesab edərək, onu dəstəkləyib. Qardaş ölkənin rəhbəri sözügedən layihənin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq dəhliz açılacağını, bunun çox böyük əhəmiyyət kəsb edəcəyini bildirib.

Yeri gəlmişkən, Şuşa Bəyannaməsində Zəngəzur dəhlizinin davamı kimi Naxçıvan–Qars dəmir yolunun tikintisinin də Azərbaycanla Türkiyə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyi öz ifadəsini tapıb.

Ümumiyyətlə, Zəngəzur dəhlizi layihəsi təkcə Naxçıvanla Azərbaycanın digər bölgələri arasında nəqliyyat imkanlarının açılmasına deyil, bütövlükdə Xəzər və Aralıq dənizi hövzələrinin, daha geniş mənada isə Cənub-Şərqi və Mərkəzi Asiya ilə Avropanın əlaqələndirilməsinə xidmət göstərəcək.

Bu layihədən gələcəkdə bəhrələnən Ermənistan da sosial-iqtisadi sahələrdə müsbət göstəricilərlə qarşılaşacaq, işğalçı ölkə iqtisadi blokadadan çıxmaq və iqtisadi inkişafını gerçəkləşdirmək imkanı əldə edəcək.

Sonda onu da xatırladaq ki, respondentlər Füzulidə ilk dəfə beynəlxalq hava limanının açılmasını, Zəngilan və Laçında hava limanlarının inşasının planlaşdırılmasını Azərbaycanın turizm sektorunun inkişafına müsbət təsir (75,9 faiz), regionun iqtisadi inkişafına töhfə (57,3 faiz), Qarabağa səfərlərin vaxt baxımından qısalması (52,7 faiz), məşğulluğa əlavə dəstək kimi (25,5 faiz) şərh ediblər.

Sorğunun nəticələrinə görə, Prezident, Ali Baş Komandan İlham Əliyev Qələbənin memarı kimi qlobal platformalarda intensiv çıxışları ilə zəfər tariximizi uğurla beynəlxalq aləmə tanıdır (93,6 faiz), zəfərin tarixiləşdirilməsində vətəndaş iştirakçılığını və ümummilli həmrəyliyi stimullaşdırır (85,7 faiz), Azərbaycanın informasiya siyasətində üstünlüyünü təmin edir və bu yöndə fəaliyyətə dair yeni imkanlar açır (85,7 faiz) və uğurlu siyasətin təminatında əsas resursa çevirməyin vacibliyini şərtləndirir (79,8 faiz).

***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.- 26 dekabr.- S.1;3.